# İstanbulda Türk Dünyası Hekayə Festivalı keçirilib

*Beynəlxalq Festivalda mərkəz ölkə Azərbaycan, əsas mövzu Azərbaycan ədəbiyyatı olub*




2-6 iyun tarixlərində Türkiyənin İstanbul şəhərində Zeytunburnu Bələdiyyəsinin təşkilatçılığı ilə IV Türk Dünyası Hekayə Festivalı keçirilib. Türk dünyasının 8 ölkəsindən yazıçıların qatıldığı festivalda əsas mövzu Azərbaycan ədəbiyyatı seçilib. Festival günlərində təşkilatçıların təşəbbüsü ilə Türkiyəli yazıçı-tərcüməçi İmdat Avşarın redaktoru və ideya müəllifi olduğu Azərbaycan yazıçılarının əsərlərindən ibarət hekayə antalogiyası türkcə işıq üzü görüb. Açılış mərasimində Zeytunburnu Bələdiyyəsi Ömər Arısoy çıxış edərək bu cür tədbirlərin türkdilli xalqların ədəbiyyatları arasında əlaqələrin yaranması üçün mühüm olduğunu diqqətə çatdırıb. Azərbaycanın Xalq yazıçısı Anar ölkəmizin 44 günlük Zəfər savaşında hər zaman yanımızda olan türk qardaşlarımıza təşəkkürlərini çatdırıb. Sovetlər dönəmində Türkiyə həsrəti ilə yaşayan Azərbaycan ziyalılarının xələflərinin bu xoşbəxtliyə çatmasından məmnunluğunu dilə gətirib. Festivalın açılış günü Azərbaycan müğənnisi Azərin konsert proqramı ilə çıxış edib. Əsas mövzusu Qarabağ zəfəri olan konsert böyük coşqu və təntənə ilə qarşılanıb.

Daha sonrakı günlərdə Türkiyə, Azərbaycan, Özbəkistan, Qazaxıstan və başqa qatılımcı ölkələrin ədəbiyyatlarına aid ayrı-ayrı panellər təşkil olunub. Azərbaycan hekayəsinə həsr edilmiş panel yazıçı-tərcüməçi İmdat Avşarın moderatorluğu ilə keçirilib. Azərbaycan ədəbiyyatına ümumi bir nəzər salan İmdat Avşar mərhələlər üzrə ədəbiyyatın necə inkişaf etdiyini, hansı məqama gəlib çatdığını təhlil edib. Festivalda ölkəmizi təmsil edən yazıçılar Kamran Nəzirli tarixi qədimə dayanan ədəbi əlaqələrdən, Pərvin Nurəliyeva ənənələrdən müasirliyə doğru inkişaf edən Azərbaycan hekayəçiliyindən, Təranə Vahid müasir Azərbaycan hekayəsindən söz açıblar. Çıxışılardan sonra Festival təşkilatçılarından olan Türkiyəli yazıçı Aykut Ərtoğrul Azərbaycan və türk nəsri arasındakı bağlardan danışıb, panel iştirakçılarına suallarını ünvanlayıb. Müzakirə şəklində keçən görüş dinləyicilərin də böyük marağına səbəb olub. Növbəti gün Azərbaycandan festivala qatılan yazıçılar Fəxri Uğurlu ədəbi mətbuat tariximizdən, Cavid Zeynallı Azərbaycan hekayəsində mif və fantastika mövzusunda məruzələr ediblər.

Festival çərçivəsində Zeytunburnu ərazisində yerləşən məktəblərdə yazıçıların oxucularla görüşləri, imza günləri baş tutub.

Həmçinin Festivala "Onur qonağı" qismində qatılan Xalq yazıçısı Anarın və türkiyəli araşdırmaçı Nəcib Tosunun master-klassları keçirilib. İmdat Avşarın moderatorluğu ilə keçirilən ustad dərsində Xalq yazıçısı Anar və Nəcib Tosun türk dünyasının ortaq mətnlərindən, dastanlardan söz açıblar. Türk ədəbiyyatını dünya ədəbiyyatının tərkibi kimi təhlil ediblər.

Festivalın qapanış mərasimində bütün qatılımcılara təşəkkür bəlgələri təqdim olunub. Xalq yazıçısı Anar təşkilatçılara Azərbaycan Yazıçılar Birliyi adından təşəkkürnamələr və Qarabağı simvolizə edən suvenirlər hədiyyə edib. Sonda iştirakçılar və təşkilatçılar birgə xatirə şəkli çəkdiriblər.



**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 11 iyun.- S. 27.**